ÜÇ ƏSRİN QƏZETİ Kaspi








# “SƏSLƏR DƏ RƏNGLƏR KİMİ GÖZƏLDİR”

ZƏFƏRİMİZİN SİMVOLU ŞUŞA

SÖHBƏTLƏŞDİ



XANIM AYDIN
xanimaydin@kaspi.az

“Mən dünyanı, insanları və ümumiyyətlə, bütün canlıları sevirəm. Onların hamısı gözəldir. Bilirəm ki, dünyanı, doğrudan da, sevgi və gözəllik, ya da gözəl sevgi xilas edəcək. İstəyirəm, insanlar bir-birlərini sevsin. Heç kim heç kimi incitməsin, qəlbini qırmasın”.

Rənglər insan taleyində qəribə çalarlar yaradır. Bu çalarlar bəzən ağı qaraldır. Bəzən də o qaranın içindən rəngbərəng göy qurşağı doğurur. Talelər, doğrudan da, qəribədir. Elə gənc rəssam Əli İskəndərlinin taleyi kimi. Əli doğulanda heç kimdən heç nəylə fərqlənməyib. 8 ayına çatanda anası Əlinin heç bir səsə reaksiya vermədiyinə diqqət edib. Körpə sözləri sezməsə də, parlaq gözləriylə ətrafa baxıb rəngləri sezirmiş. Fiziki məhdudiyyət Əli üçün heç nəyə sərhəd qoymayıb. Əvvəl anası Xatirə xanımın, sonralar isə artıq özünün inamı və mübarizəsi ilə ətrafında olan baryerləri qıra bilib. Əlbəttə, bağçada, orta məktəbdə əvvəl-əvvəl çətin olsa da, özündə güc tapıb. Həm də üstəlik rəssam olmağı da bacarıb. Beləliklə, müsahibim gənc rəssam, bir çox müsabiqələr laureatı Əli İskəndərlidir. Əli ilə yarı jest dili, yarı sözlərlə söhbətləşdik.

## SƏBİRLİ ADAMIN NİCATI

Mən səbirli adamam, adam səbirli olanda nicat tapır, deyir Əli: “Balaca olanda danışılanları yaxşı eşidə bilmirdim. Demək olar ki, heç eşitmirdim də. Öz dünyam vardı və bu dünyada rənglər mənə sözlərdən daha doğma idi. Ən sevimli məşğuliyyətim idi gördüklərimi kağıza köçürmək. Bu qabiliyyətimi ilk olaraq anam hiss etdi. Mənə akvarel, rəngli karandaşlar, albom aldı. O, mənə inandı, mən də onun inamından ilhamlandım. Mən çəkməkdən yorulmurdum. Bu səssizlik, əslində, rənglərlə harmoniyaya girməyə daha çox kömək edirdi”.

## RƏNGLƏRİN AHƏNGİNDƏ

Rənglərin ahəngində özünü tapan gənc rəssam mənzərə, natürmort və əsasən də, əfsanə, nağıl qəhrəmanlarını çəkməyi daha çox sevir: “Oxuduğum nağıllardakı əfsanə qəhrəmanlarını, oradakı hadisələri bir müddət fikirləşirəm. Tam nəyi necə çəkəcəyimi beynimdə formalaşdırandan sonra əvvəl qaralamada çəkirəm. Ancaq ondan sonra yağlı boya, akvarel, quaşla kətan və ya kağız üzərinə köçürürəm. Azərbaycanın bölgələrini gəzməyi də çox sevirəm. Saatlarla dağlara, göllərə, çiçəklərə, ağaclara baxmaqdan yorulmuram. Axan çayı təsvir etmək isə lap çox xoşuma gəlir. Bundan xüsusi zövq alıram!”

*“Cəmi 19 yaşım var. Amma istəyirəm özümdən balacalara deyim ki, çətinlikdən qorxmasınlar. İnsan arzuları sonsuzdur. Arzuların açarı da inamdır. İnam olanda insan arzuları çin olur.”*

## İSTƏYİRƏM ÖLKƏMDƏ HƏMİŞƏ SÜLH OLSUN!

Bütün rənglərin ayrıca mənasının, ab-havasının, ətrinin olduğunu düşünən Əli bütün rəngləri sevsə də, yaşıl rəngə xüsusi sevgisindən danışdı: “Yaşıl rəng başqa rənglərdən fərqlidir. Bu rəngdə yaşam var, həyat var, gözəllik var, doğuluş var, böyümə var. Bir də ki, yaşıl islamın rəngidir. Mən inanclı adamam. Bütün dualarım Azərbaycan üçündür. İstəyirəm ölkəmdə həmişə sülh olsun! Biz 44 günlük Qarabağ savaşında qalib olduq! Bu qalibliyin sevincini yaşayırıq. Amma bilirsiniz, müharibə çox pisdir. Müharibə yarımçıq qalan talelərdir, arzulardır, ömürlərdir. Mən bunu daha çox dayım şəhid olanda anladım. Onunla fəxr edirəm. Şəhidlər, doğrudan da, ölməzdir”.

## RƏSSAMIN HARVARD ARZUSU

Hazırda Azərbaycan Dövlət Pedaqoji Kollecin “Təsviri incəsənət müəllimliyi” ixtisasında təhsil alan Əlinin arzusu buranı bitirəndən sonra təhsilini Rəssamlıq Akademiyasında davam etdirməkdir. O, daha sonra Amerikanın Harvard Universitetində də təhsil almaq istəyir. Niyyəsi də maraqlıdır: “Mən yaxşı təhsil alıb ölkəmizə dönmək istəyirəm. İstəyirəm ki, maddi vəziyyətim çox yaxşı olsun, imkanı olmayan uşaqların təhsilhaqqını ödəyim. İstəyirəm ki, ölkəmizdə hamı xoşbəxt yaşasın. Bu işdə mənim də əməyim olsun”.



FOTOLAR: Rüfət Mikayılov/Global Media Group



Öz rəssamlarımızdan Toğrul Nərimanbəyov, Səttar Bəhlulzadə, Tahir Salahov, Əzim Əzimzadəni, əcnəbilərdən Leonardo da Vinçinin əsərlərini çox sevən Əli istəyir ki, rəsmləri böyük sərgi salonlarında sərgilənsin: “Mən dünyanı, insanları və ümumiyyətlə, bütün canlıları sevirəm. Bilirəm ki, dünyanı, doğrudan da, sevgi və gözəllik, ya da gözəl sevgi xilas edəcək. İstəyirəm, insanlar bir-birlərini sevsin. Heç kim heç kimi incitməsin, qəlbini qırmasın. Mən heç vaxt xaricdə olmamışam. Rəssam olduğum üçün Fransanın, İtaliyanın rəsm qalereyalarında olmaq istərdim. Amma onlardan öndə mənim üçün Kəbə dayanır. İlk olaraq ora getmək istəyirəm”.

“Fiziki məhdudiyyətim mənə heç vaxt mane olmayıb!”, – deyir Əli: “Cəmi 19 yaşım var. Amma istəyirəm özümdən balacalara deyim ki, çətinlikdən qorxmasınlar. İnsan arzuları sonsuzdur. Arzuların açarı da inamdır. İnam olanda insan arzuları çin olur. Mən müəllimlərimə sonsuz təşəkkür edirəm. Onlar öyrədib mənə hər şeyi. Bir də anama minnətdaram! Anam rəssam olacağıma ilk inananım, ilk dəstəkçim, ilk arxa-dayağım olub”.

Heydər Əliyev Fondunun dəstəyi ilə “Koxlear implantasiya” proqramı çərçivəsində bir qrup eşitmə məhdudiyyəti olan şəxslərin əməliyyatı həyata keçiriləndə Əli də əməliyyat olunub. Bu, onun eşitməsinə xeyli yardımçı olub. Qeyd edim ki, koxlear implant, orta və dərin sensorinöral eşitmə itkisi olan şəxsə səs qavrayışını təmin edən cərrahi yolla implantasiya edilmiş neyroprotezdir. Buna görə dövlətə minnətdar olan Əli deyir ki, eşitməsində xeyli yaxşılaşma var: “İndi mənim üçün səslər də rənglər kimi gözəldir”.